


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 7 (24.144)

14 yanvar 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


*İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının qəhrəmanlığını bir daha nümayiş etdirdi. Bu tarixi dövrdə Azərbaycan Ordusunun, Azərbaycan diplomatiyasının saysız uğurları dünya hərb və siyasət tarixinə qızıl hərflərlə yazılıb. Ordu-xalq, dövlət-ordu, xalq-dövlət birliyi dünya ictimaiyyətinə bir daha nümayiş olundu. 44 günlük müharibənin hər dəqiqəsi şanlı Zəfər tarixi kimi yaddaşımızda yer aldı və uzun illər də öz mənəvi və psixoloji dəyərini qoruyacaqdır.*

## Zəngəzur dəhlizi tarixi reallıqdır



Müzəffər Ordu və Müzəffər Ali Baş Komandan birliyi üçtərəfli Bəyanatla daha da gücləndi. Dünya tarixində sayı elə də çox olmayan, düşmənə öz imzası ilə məğlubiyyətini qəbul etdirən kapitulyasiya aktı imzalandı. Həm də şərtləri qalib ölkə – Azərbaycan tərəfindən diktə olunan Bəyanat qəbul edildi. Bəyanat tam olaraq Azərbaycanın milli maraqlarını özündə ehtiva edir. Bəyanatın 9-cu bəndinə uyğun olaraq bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilməli və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın Qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin edilməli idi. Nəhayət, Zəngəzur dəhlizi tarixi reallığa çevrilir. Həmçinin də bu dəhliz tarixi İpək Yolunun bərpası deməkdir. Zəngəzur dəhlizi Azərbaycanın iqtisadi və siyasi potensialını dəfələrlə artıracaqdır. Həmçinin Cənubi Qafqazda yeni inteqrasiya təşəbbüsləri yaradacaqdır. Bununla da 3+3 formatı, yəni "altılıq platforma" reallığa çevrilə bilər. Zəngəzur dəhlizi regiona həm qonşu dövlətləri, həm də dünyanın güc strukturlarını cəlb edir.

Bu tarixi ticarət yolu istər region, istərsə də dünya üçün yeni perspektiv deməkdir. Bu dəhlizin yeni imkanları maraqlı dövlətləri özünə cəlb edir. Qeyri-region ölkəsi olmasına baxmayaraq, Çin dövləti də Zəngəzur dəhlizində maraqlıdır. Çinin "Bir kəmər bir yol" layihəsi çərçivəsində planlanan 3 ticarət yolundan biri olan "Orta yol" nəqliyyat dəhlizi Zəngəzur dəhlizinin önəmini daha da artırır. "Bir kəmər bir yol" layihəsi üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də ticari-iqtisadi əlaqələrin ucuz, təhlükəsiz, sürətli yolla təşkil edilməsindən ibarətdir. Bu məqsədlə şərti olaraq "Şimal yolu", "Orta yol" və "Cənub yolu" kimi terminlər də dövriyyəyə çıxıb. "Şimal yolu" Rusiya ərazisindən keçərək Avropaya uzanan, "Orta yol" Mərkəzi Asiya-Azərbaycan-Gürcüstan-Türkiyəni əhatə edən marşrutu, "Cənub yolu" isə Cənubi Asiya ölkələri ərazisindən keçərək İranı da əhatə edən istiqamətdir. Məsələ burasındadır ki, bu üç əsas yol Cənubi Qafqazda, Azərbaycan ərazisində kəsişir. Azərbaycan tərəfinin məqsədi və mövqeyi qətiyyətli, eyni zamanda aydındır ki, Zəngəzur dəhlizi, hər şeydən əvvəl, regional əməkdaşlıq qarşısında illərdir, dayanan maneələrin aradan qaldırılmasına xidmət etməlidir. Daha sonra regionda dayanıqlı və möhkəm sülh və sabitlik, həmçinin perspektiv imkanlar yaratmalıdır. Dəhlizin mümkün imkanlarını nəzərə alan bir çox dövlət artıq bu reallığı qəbul edərək Zəngəzur dəhlizini dəstəkləyir. Əməkdaşlıq fonunda Azərbaycan "altılıq platforma"nı da tam dəstəkləyir. Bu platforma region ölkələrini birbirinə daha da yaxın edəcək. Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstan və Ermənistanın əməkdaşlıq və təhlükəsizlik sahələrində ortaq fəaliyyət göstərmək üçün xüsusi platformada birləşməsi nəzərdə tutulub. Yəni bu ölkələr regiondan kənarda olan qüvvələrlə əməkdaşlıq və təhlükəsizlik məsələlərində razılaşdırılmış formada və bir əməkdaşlıq formatının üzvləri kimi iştirak etməlidirlər. Deməli, Zəngəzur dəhlizi həmin altı dövlət üçün geosiyasi və geoiqtisadi aspektlərdə eyni dərəcədə əhəmiyyət kəsb edir və onun təhlükəsizliyi onların hər birinin vəzifəsidir. Belə ki, Cənubi Qafqazda hansısa dövlətin hegemon davranışına son qoyulur. Burada Azərbaycan, Rusiya, Türkiyə, Gürcüstan və İran bir yerdə aparıcı rol oynamalıdırlar. Digər bir məsələ isə Azərbaycanın istənilən əməkdaşlıq platformasına Ermənistanı da aid etməsidir. Bu humanizm bölgədə uzunmüddətli sülh və əməkdaşlıq baxımından olduqca əhəmiyyətlidir. Beləliklə, Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizi tarixi bir inkişaf yolu və çox yaxın reallıqdır. Çinin Avropanın, eləcə də region dövlətlərinin Zəngəzur dəhlizində ortaq maraqları bu tarixi 300 ilə dayanan qədim yolun bərpasını daha da reallaşdırır. Qardaş Türkiyə dövləti ilə imzalanan, qardaş sevgisini, qardaş dəstəyini dünyaya nümayiş etdirən Şuşa Bəyannaməsi bölgədə əməkdaşlığın, sülhün, inkişaf perspektividir. Analoqu olmayan bu platforma Azərbaycanı regionda və dünyada söz sahibi edir.




Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın qətiyyətli mövqeyi ölkə başçısının Naxçıvan səfərində də özünü göstərmişdir. Prezident cənab İlham Əliyev bu sözləri 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində deyib: ***"Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan, təqribən, 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır".*** Nəticə olaraq, Müzəffər Ali Baş Komandan, müzəffər Ordu və müzəffər xalq birliyi sülhün, təhlükəsizliyin, beynəlxalq əməkdaşlığın qarantıdır.

**Nazlı YAQUBOVA**
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi, siyasi elmlər üzrə dissertant***

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin saytı "gov.az" zonasına köçürülüb

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin elektron informasiya resursu, yəni *"nnk.gov.az"* domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb.



Bu barədə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən məlumat verilib.

Qeyd edək ki, xidmət tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının internet səhifələrinin *"gov.az"* zonasında qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

**Xəbərlər şöbəsi**

## Cari ilin ilk ayı üçün əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsi başa çatdırılmışdır

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatlar əhalinin sosial müdafiəsi sahəsində uğurlu nəticələrin əldə olunmasını şərtləndirir. Əhalinin sosial qayğıya çox ehtiyacı olan pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə yönələn tədbirlər, sığorta-pensiya sisteminin inkişafı sahəsində görülən işlər onların maddi rifah halının yaxşılaşdırılmasını təmin edir.*

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu muxtar respublikada əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin vaxtından əvvəl maliyyələşdirilməsi üçün verilən tapşırıqların icrasına çalışmış, 2023-cü ilin ilk ayının əmək pensiyalarının pensiyaçılara ödənilməsi tam yekunlaşmışdır. Bundan başqa, əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləlik və doğuma, uşağa qulluğa görə müavinətlərin, uşağın anadan olmasına və dəfn üçün birdəfəlik müavinətlərin ödənilməsi də həyata keçirilmişdir. Ümumilikdə, pensiya ödənişinə 16 milyon 123 min 314 manat, məcburi dövlət sosial sığortası haqları hesabına müavinətlərin verilməsinə isə 418 min 952 manat vəsait pensiya və müavinət alan şəxslərin ödəniş kartlarına köçürülmüşdür.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ötən il imzaladığı müvafiq Sərəncama əsasən ümumi əsaslarla pensiya təyin edilmiş şəxslərə rüb ərzində 50 manat məbləğində, ümumilikdə, il ərzində 200 manat olmaqla ödənilən maddi yardımın bir aya düşən məbləği, yəni 16,66 manat bu ay həmin şəxslərin pensiyalarının tərkibinə daxil edilərək ödənilmişdir. Ümumiyyətlə, əmək pensiyaçılarına bu ay 640 min manat əlavə vəsait verilmişdir ki, bu da, ümumilikdə, muxtar respublikada əmək pensiyaçılarına il ərzində 7 milyon 680 min manat əlavə vəsaitin ödənilməsi deməkdir. Bundan başqa, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə aylıq əmək pensiyası məbləğinin 10 faizi məbləğində aldıqları aylıq maddi yardım bu aydan həmin şəxslərin də pensiyalarının tərkibinə daxil edilərək ödənilmişdir. Bu sosial dəstək tədbirləri ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü ildə start verdiyi növbəti sosial islahatların başlanğıcıdır. Növbəti aydan 2023-cü ilin 1 yanvar tarixindən hesablanmaqla minimum pensiyanın artım məbləği və indeksasiya faizi ilə artan pensiya məbləğləri əmək pensiyaçılarının hesablarına köçürüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Şərur rayonu da dövlət qayğısından bəhrələnir, abadlaşır, gözəlləşir





Ölkə başçısı cənab İlham Əliyevin ölkəmizin digər bölgələri kimi, Naxçıvana da göstərdiyi diqqət və qayğının nəticəsidir ki, muxtar respublika sürətlə inkişaf edir. Sosial-iqtisadi inkişaf, mühüm infrastruktur layihələrinin uğurla həyata keçirilməsi qədim diyarımız olan Şərur rayonunda da tikinti, quruculuq və abadlıq işlərini xeyli sürətləndirib. Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar həyata keçirilən Dövlət proqramlarına uyğun olaraq diyarımızda ayrı-ayrı obyektlərin tikintisi uğurla davam etdirilir. Şərur rayonunda da istehsal müəssisələri, təhsil, səhiyyə və digər qurumlar üçün binaların tikintisi, yolların və digər infrastrukturların yenilənməsi diqqət mərkəzində saxlanılır. Şərur şəhəri həyata keçirilən quruculuq tədbirləri sayəsində simasını büsbütün dəyişib. Aparılan abadlıq, quruculuq və yaşıllaşdırma tədbirləri sayəsində şəhərdəki Heydər Əliyev prospekti, Heydər Parkı və digər məkanlar gözəl görkəm alıb. Hazırda Şərur şəhərində həyata keçirilən quruculuq tədbirlərindən biri də 40 mənzilli yeni yaşayış binasının tikintisidir. Aldığımız məlumata görə, binanın beşinci mərtəbəsində beton-qəlib işləri görülür.

Şəhərin Mikayıl Müşfiq küçəsində də kompleks quruculuq işləri aparılır. Ərazidə 12 yaşayış binası əsaslı şəkildə təmir edilir. Binaların dam örtüyü yenilənir, fasad hissələrinə yeni görkəm verilir, qapı və pəncərələri daha müasir və keyfiyyətli materiallarla dəyişdirilir. Bundan əlavə, yaşayış binalarının qarşısı abadlaşdırılır, nümunəvi həyətlər salınır. Tikintisi davam etdirilən mühüm obyektlərdən biri də avtovağzal binasıdır.

Hazırda burada son tamamlama işləri yerinə yetirilir. Binanın içərisində gözləmə zalına üzlük plitə daşları kəsilib bərkidilir, beton-qəlib işləri görülür. Avtovağzal binasının qarşı tərəfi abadlaşdırılır, piyada yolları, səkilər qaydaya salınır, yaşıllaşdırma tədbirləri həyata keçirilir. Avtovağzal binası istifadəyə verildikdən sonra rayon mərkəzində və ayrı-ayrı kəndlərdə sərnişindaşıma xidməti daha da yaxşılaşacaq, əhaliyə göstərilən xidmətin səviyyəsi yüksəldiləcək.

Onu da qeyd edək ki, şəhərdəki mərkəzi stadionda da yenidənqurma işləri görülür, gənclərin və yeniyetmələrin idmanın müxtəlif sahələri ilə məşğul olmaları üçün lazımi şərait yaradılır.

**Ramiyyə ƏKBƏROVA**

*Son zamanlar Taylan Sorqunun müəllifi olduğu görkəmli türk hərb xadimi Xəlil paşanın "İttihad və tərəqqidən cümhuriyyətə bitməyən savaş" adlı xatirələrindən ibarət kitabı ölkəmizdə Azərbaycan dilində çap olunmuşdur. Əsər tanınmış türkoloq, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən Azərbaycan dilinə uğurla çevrilmişdir. Ə.Quliyev kitabı çapa hazırlayarkən bəzi bölmələri ixtisara salmış və yığcamlaşdırmışdır. Bunu da qeyd edək ki, əsərin özü də olduqca sadə, anlaşıqlı bir üslubda qələmə alınmış, çox oxunaqlı bir dildə yazılmışdır. Görünən budur ki, Xəlil paşanın xatirələrini çapa hazırlayarkən istedadlı bir qələm sahibi, publisist olan Taylan Sorqun yazının üslubunu əsl hekayə dilinə çevirmiş, oxunaqlılığı və anlaşılıqlılığını təmin etmişdir. Professor Ə.Quliyev də Azərbaycan dilinin geniş imkanlarından bəhrələnmiş, ən uğurlu, işlək, fikirləri sadə, dəqiq şəkildə ifadə edən leksik imkanlardan yararlanmışdır.*

*Yeni nəşrlər*

## Bir savaşdan qalan xatirələr

## Xəlil paşanın "Bitməyən savaş" adlı xatirələrində Azərbaycanın da taleyüklü məsələləri yer alıb




Kitabın Azərbaycan dilində çapının elmi redaktoru və ön sözünün müəllifi AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevdir. Kitab "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən 2022-ci ildə nəşr edilmişdir. Kitab son dövrlərdə daha da inkişaf edən Azərbaycan-Türkiyə münasibətləri fonunda mühüm siyasi-tarixi əhəmiyyətə malikdir. Ümumiyyətlə, çap olunan kitab bir sıra cəhətdən oxucular üçün maraq kəsb edən xüsusiyyətlərlə zəngindir. Belə ki, əvvəla, kitab Azərbaycan xalqının taleyüklü tarixi hadisələrində mühüm rol oynamış görkəmli türk hərbi xadimi Xəlil paşanın hərbi xidmət və döyüş yolundan bəhs etməklə xüsusi əhəmiyyət daşıyır. Digər tərəfdən, Xəlil paşanın xatirələrinin əks olunduğu əsərdə Azərbaycan xalqının müqəddəratı və tarixi ilə bağlı olduqca vacib və maraqlı məsələlər yer almışdır. Kitab Azərbaycan xalqının da tarixi ilə yaxından bağlı olan ciddi ictimai, siyasi və hərbi hadisələr fonunda olduqca ziddiyyətli, mürəkkəb və əhəmiyyətli bir dövrü öyrənmək üçün mühüm bir mənbə rolunu oynamaqdadır.

Xəlil paşa Kut adı ilə tanınan görkəmli hərb xadimi Azərbaycan xalqının mürəkkəb və çox çətin, faciələrlə dolu olan 1918-1920-ci illər cümhuriyyət dövrü tarixilə yaxından bağlı Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın və Osmanlı dövlətinin müdafiə naziri Ənvər paşanın əmisidir. Xəlil paşanın xatirələrində çox maraqlı tarixi hadisələr öz təqdimini tapmışdır. Xatirələr 23 başlıq – bölmə üzrə təşkil olunaraq bir-birilə əlaqəli, yəni Osmanlı Türkiyəsinin Birinci Dünya müharibəsində apardığı "İttihad və tərəqqidən Cümhuriyyətə"dək varoluş uğrunda mücadiləsini əks etdirmişdir. Kitabda "Balkan savaşı", "Birinci Dünya müharibəsi", "İngilislər və Kut savaşları", "Mühasirə", "Bilin ki, Kutu əldən verməm", "Özü gələn", "Kutu ələ keçirdik", "Rusiyada inqilab", "Şeyx Mahmud", "Bakının işğaldan azad edilməsi", "İran", "İrəvan", "İnqilab və Azərbaycan" və başqa bölmələr yer almışdır ki, bu bölmələr də Xəlil paşanın yaddaş və baxış bucağı çərçivəsində müəyyən dövrdə yaşanmış konkret hadisələrlə bağlıdır. Əlbəttə, burada bilavasitə Azərbaycanla bağlı – Azərbaycan tarixinin ən çətin dönəmləri olan inqilablar dövrü və müharibələr zamanında keçirdiyi ciddi taleyüklü hadisələr, tarixi məsələlər özünə yer almışdır.

Kitabı oxuduqca diqqəti cəlb edən bir sıra maraqlı məsələlər əhəmiyyət qazanır. "Balkan savaşı" bölməsi, əslində, əsas hadisələr üçün başlanğıc – giriş xarakteri daşıyır, əsərin baş qəhrəmanı ilə bağlı proloq rolunu oynayır. Bu bölmədə Xəlil paşanın Ənvər paşa tərəfindən Vanda, sonra İstanbulda Mərkəz komandanlığına gətirilməsi, oradakı uğurlu xidmətləri və nəhayət, Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar "Xəlil bəy qüvveyi səfəriyyəsi" adı altında "bir mürəttib diviziyanın" komandanlığı vəzifəsinə gətirilməsindən bəhs edir. Kitabın "Birinci Dünya müharibəsi" bölməsindən əsas hadisələr başlayır və Xəlil paşanın hərbi xidmətləri fonunda yaddaşa yazılmış hadisələr bircə-bircə yer alır. Məsələn, Xəlil paşanın qeydləri əsasında məlum olur ki, hələ Birinci Dünya müharibəsinin gedişi prosesində Osmanlıda "ermənilərin soyqırımı" kimi ictimaiyyətə sırımaq istədikləri qanlı hadisələr, əslində, ingilis, rus və başqa qüvvələrin təhriki ilə ermənilərin türklərə, eləcə də kürdlərə qarşı apardıqları utancverici və xain hücumlarının qanlı nəticələridir.

Eləcə də hadisələrin təqdimi fonunda türk əsgərlərinin döyüş əzmi, qüdrəti, fədakarlığı və qəhrəmanlıqları aparıcı yerdə gəlmişdir. Belə ki, Xəlil paşa qazanılan bütün qələbələrin nüvəsində məhz qəhrəman türk əsgərlərinin döyüş əzmi və cəsarətini səbəb olaraq göstərmiş və minnətdarlığını ifadə etmişdir. Xəlil paşanın komandanlığı altında İraqda Bağdadın Kutülamara ərazisinin azad olunmasında türk əsgərlərinin göstərdiyi qələbə əzmi haqqında "Bilin ki, Kutu əldən verməram" adlı hissədə konkret faktlarla bəhs edilmişdir. Bu əhəmiyyətli ərazinin ingilis işğalından azad olunmasında məhz Xəlil paşanın komandanlığı, onun bir hərbçi, komandan olaraq məharəti və düzgün qərarları əhəmiyyətli rol oynamışdır. Xəlil paşa, hətta türk əsgərlərinin cəsarətli döyüşlərini izləmək istəyən alman zabitlərinə təqdim edib göstərdiyi bəzi hadisələrdən məmnuniyyətlə söhbət açmışdır. Paşa bu xatirələri ilə bağlı belə yazır: "Bu arada Dük mənimlə irəli xətlərə getmək istədiyini bildirdi. Sözünü yerə salmadım, onu da götürüb irəli xətlərə doğru hərəkət etdim...

İlk rastladığımız yaralını dayandırdım, bu Kastamonudan dövlət üçün döyüşməyə gəlmiş bir sıravi əsgər idi. Dayandı, yanımdakının əcnəbi olduğunu anlamışdı, "biz belə əsgərik" deyər kimi göstərişli bir salam verdi. "Döyüş necə gedir, kastamonulu?" – dedim.

– Komandanım, mübarək olsun, düşmən aldandı bizim gizli ehtiyatlara...

...Bir az irəlilədik, bu dəfə çörəyi sol əlilə yeyən əsgərə rast gəldik. Sol əlindəki çörəyi qoymağa yer tapa bilmədi... "Niyə çörəyi sol əlinlə yeyirsən?" – deyə soruşdum.

– Sağ qolum, komandanım, bir güllə ilə qopdu getdi. Axtardım, axtardım, tapa bilmədim. Neyləyim, sən sağ ol...

Ardından bir başqa yaralıya rast gəldik, hələ ona bir söz deməmiş, hörmətlə qarşımda dayandı və: "Komandan paşam, bu gələnlər bizə bir şey edə bilməzlər, bilirsinizmi?" və digər xatirələrin həmin hissəsində Xəlil paşa, həmçinin döyüş yerlərində müşahidə aparmış alman zabitlərinin də maraqla qarşıladıqları hadisələr haqqında bəhs etmişdir. Məsələn: "Dük ingilis əsirdən soruşur: – Yaxşı, alman əsgərimi, yoxsa türk əsgərimi daha cəsur?

– Heç şübhə yoxdur ki, türk əsgəri. Alman əsgəri ilə müqayisə edilməz, türklər çox cəsurdurlar. Biz Qərb cəbhəsində bir-iki saatlıq topçu atəşindən sonra irəliləyir, alman səngərlərinə girir, yerləşir və orada qalırdıq. Burada isə altı saat sürən topçu atəşindən sonra boş qaldığını zənn etdiyimiz türk səngərlərinə girdik. Ancaq gözləmədiyimiz bir yerdən hərbi sıralar qaydasında bomba və süngülərlə üzərimizə atılan türk əsgərləri bizi, gördüyünüz kimi, toplayıb buraya gətirdilər.

...Dük 3-4 ingilis əsirindən də eyni sualı soruşdu və hamısından aldığı cavab bu idi: "Türkləri müqayisə etməyin. Onlar savaşın ustasıdırlar..." və sair.

Əsərin ən maraqlı hissələrindən biri "İnqilab və Azərbaycan" adlanan bölməsidir. Burada Azərbaycanda cümhuriyyət dövründəki qarışıq, mürəkkəb tarixi hadisələr haqqında bəhs edilmişdir. Bölmədəki qeydlərdə ozamankı çar Rusiyasının parçalanması və daxili ziddiyyətlərin yaşandığı bir dönəmdə Qafqazda yaşayan xalqların öz müstəqilliklərini əldə etmək cəhdləri, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması istiqamətində atılan əhəmiyyətli addımlar, Türkiyənin bu proseslərdə müdafiəedici və möhkəmləndirici rolu, erməni-bolşevik və ingilis qüvvələrinin Azərbaycanda törətdikləri faciəvi hadisələr, Rusiyanın Azərbaycandakı maraqları və buradakı proseslərə təsiri və sair haqqında geniş bəhs edilmişdir.

Eləcə də kitabın "İran", "İrəvan", "İnqilab və Azərbaycan" adlı bölmələrində də Azərbaycanla, tarixi ərazilərimizlə bağlı maraq dolu faktlar özünə yer almışdır. Xüsusilə Xəlil paşa çox açıqsözlülüklə ermənilərin nə kimi xainliklərdən çıxması, Azərbaycan torpaqlarına ermənilərin və digər düşmən, xain qüvvələrin apardıqları nifrətamiz, mənfur işlər öz əksini tapmış, olduqca lüzumlu faktlardan bəhs edilmişdir. Xüsusilə də "Bakının azad edilməsi" bölməsində bu qandondurucu sözləri oxuyuruq: "Bakı 1918-ci il sentyabrında işğaldan azad edildi.

...Şəhərdə silah səsləri gecə-gündüz davam edirdi. Şəhər ingilislərin nəzarəti altında olduğu zaman ermənilər və bolşeviklər yerli türk xalqına qarşı geniş bir qətliam törətməyə girişmişdilər. Şəhərin hər məhəlləsində ermənilər türklərdən meyid qalaqları düzəltmişdilər. Və bütün vəhşiliklərini göstərmişdilər. Körpə uşaqlar qala bürcləri olmuş, qadınlar... süngülənmiş və yolların üstünə atılmışdılar... "

Kitabda bəhs edilən bir sıra məsələlər həm peşəkar oxucular – elm adamları, müəllimlər, publisistlər, yazarlar tərəfindən maraqla qarşılanacaq məsələlərdir, həm də Azərbaycanın, qardaş Türkiyənin, eləcə də region ölkələrinin Birinci Dünya müharibəsi zamanı tarixi ilə bağlı olan ümdə məsələlər yer aldığından geniş oxucu kütləsi üçün də maraq doğurucudur. Müasir və yaxın tarixdə də, Azərbaycanın müqəddəs Vətən müharibəsində, İkinci Qarabağ savaşında torpaqlarını işğaldan azad etmək kimi müqəddəs missiyasının həyata keçirilməsində yaxından iştirak edən, qardaşlığını daim möhkəm və sarsılmaz tutan Türkiyə Cümhuriyyətinin unudulmaz fəaliyyəti fonunda ozamankı qardaş ölkənin apardığı misilsiz mücadiləni də izləmək və qiymətləndirmək, tarixdən dərs çıxarmaq baxımından əsər çox böyük maraq kəsb edir.

**Ramiz QASIMOV**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, dosent***

## Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılmasının 25-ci ildönümü qeyd edilib



*Bu il müstəqillik illərində Naxçıvanda yaradılan ilk muzeylərdən biri olan Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyinin fəaliyyətə başlamasından 25 il ötür.*

Bu münasibətlə Naxçıvan Dövlət Xalça Muzeyində keçirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova milli xalçaçılıq nümunələrimizin saxlanc yeri olan muzeyin 25 illik yubileyinin qeyd olunmasının Azərbaycan xalçaçılıq məktəbində özünəməxsus yer tutan, zəngin ənənələrə malik Naxçıvanın tarixi xalçaçılıq sənətinə, milli dəyərlərimizə verilən yüksək qiymət olduğunu bildirib.

Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə mədəni irsin, o cümlədən xalçaçılığın inkişafına xüsusi dəstək göstərib. 1999-cu ilin oktyabr ayında Ulu Öndərin Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 illiyi ilə əlaqədar Naxçıvana səfəri zamanı muzeydə olması isə təkcə muzeyin tarixində deyil, Naxçıvan mədəniyyət tarixində ən əlamətdar hadisələrdən biridir.



Diqqətə çatdırılıb ki, bu siyasəti uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin qəbul etdiyi müvafiq hüquqi aktlara əsasən "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub, "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" qəbul edilib, Azərbaycan Milli Xalça Muzeyi üçün müasir standartlara cavab verən bina, rayonlarda yerli xalçaçılıq ənənələrini əks etdirən xalça muzeyləri inşa edilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1998-ci il tarixli Qərarı ilə yaradılan Naxçıvan Dövlət Xalça Muzeyi 2022-ci ilin avqust ayından Xalq rəssamı Kamil Əliyevin adını daşıyır. Milli mədəniyyət nümunələrinin öyrənilməsi və təbliği cəhətdən mühüm əhəmiyyət kəsb edən muzeydə 3 mindən artıq eksponat mühafizə olunur. Bunlardan 400-dən çoxu ekspozisiyada sərgilənir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində muxtar respublika ərazisində olan bu qədim el sənəti nümunələrinin reyestri sistemi yaradılıb və bu günədək 668 xalça reyestrə daxil edilib.

Sonra Naxçıvan Muxtar Respublika Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Milli Məclisin Mədəniyyət Komitəsinin üzvü Ülviyyə Həmzəyeva xalçaçılığın incəsənətimizdəki rolundan danışıb. Ülviyyə Həmzəyeva Lətif Kərimov, Kamil Əliyev kimi xalçaçı rəssamların bu sənətdəki rolundan, milli xalça sənətimizin Avropa və rus rəssamlıq sənətinə müstəsna təsirindən bəhs edib.

Tədbirdə muzeyin direktoru Ülviyyə Məmmədovanın muzeyin fəaliyyəti haqqında ətraflı məlumat verməsindən sonra "Azərbaycan xalçaları" filminə baxış keçirilib.

Sonda "Muğam üçlüyü"nün ifasında muğam və xalq mahnılarımız təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Özəlləşdirmə qanunauyğun olaraq həyata keçirilir



Naxçıvan Muxtar Respublikasında yaşayan qaçqın və məcburi köçkünlərin bir qismi müvəqqəti yaşayış yerlərinin özəlləşdirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinə müraciət ediblər. Onlar dövlət tərəfindən təmin olunduqları evlərin özəlləşdirilməsini istəyirlər.

Qəzetimizə də ünvanlanan çoxsaylı müraciətləri nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətindən bu məsələyə aydınlıq gətirilməsini istədik.

Xidmətdən qəzetimizə verilən məlumata görə, Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 91.1.6 (qaçqın statusuna malik olan şəxslərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələri), 91.2 (Xüsusi təyinatlı yaşayış sahələri qismində dövlət və bələdiyyə mənzil fondunun yaşayış sahələri istifadə edilir. Yaşayış sahəsinin xüsusi təyinatlı yaşayış sahəsi qismində istifadəsinə yalnız həmin sahə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qayda və tələblərə riayət etməklə xüsusi təyinatlı mənzil fonduna aid edildikdən sonra yol verilir. Yaşayış sahəsinin xüsusi təyinatlı yaşayış sahələrinin növlərindən birinə aid edilməklə xüsusi təyinatlı mənzil fonduna daxil edilməsi və ondan çıxarılması dövlət və ya bələdiyyə mənzil fondunun idarəetməsini həyata keçirən orqanın qərarı əsasında həyata keçirilir) və 91.3-cü maddələrinə əsasən (Xüsusi təyinatlı yaşayış sahələri özgəninkiləşdirilə, icarəyə və kirayəyə verilə bilməz) bu evlərin özəlləşdirilməsi qanuna uyğun deyil. Yalnız məcəllənin 146.4-cü maddəsinə əsasən yaşayış sahələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və qaydada özəlləşdirilməsinə yol verilir.

Bildirildi ki, bu məsələ ilə bağlı əvvəllər də müraciətlər olunub və özəlləşdirmələr qanuna uyğunolaraq həyata keçirilib.

**Ceyhun MƏMMƏDOV**

# Vətəndaşlarımızın qətiyyəti təbii sərvətlərimizin qanunsuz istismarına son qoyacaq




*Təbiət həyat mənbəyi hesab edilir. Əgər təbiət məhv olarsa, insan da məhv olmağa məhkumdur. Ətraf mühitlə həmahəng yaşayan insan sivilizasiya inkişaf etdikcə təbiətə daha çox təsir göstərməyə, təbii sərvətləri istismar etməklə onun nizamını pozmağa başladı. Minlərlə sənaye müəssisələrinin yaradılması, meşələrin kütləvi surətdə yandırılması, bir çox göllər və çayların quruması, havanın və dünya okeanının çirkləndirilməsi, ozon qatının deşilməsi ekoloji böhrana gətirib çıxarıb. Qlobal ekoloji böhran şəraitində iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanılması ölkəmizdə aparılan ekoloji siyasətin əsas prioritetlərindəndir.*

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəyyənləşdirdiyi ekoloji siyasət bu gün Prezident cənab İlham Əliyevin uğurlu rəhbərliyi ilə davam etdirilir. Ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində mühüm işlər görülüb, Dövlət proqramları uğurla yerinə yetirilib. Beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların və ekoloji şəbəkənin yaradılması bu sahədə görülən işlərin davamıdır. Təsadüfi deyil ki, ölkə başçısının müvafiq Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "Təmiz ətraf mühit" və "Yaşıl artım" ölkəsi başlığı altında qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq gələcək illərdə həyata keçiriləcək tədbirlərdən bəhs edilir. Ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunması, resurslardan səmərəli istifadənin təmin edilməsi, iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklərin azaldılması, iqtisadi artımla ekoloji mühitin tarazlı olması, yararsız torpaq sahələrinin dövriyyəyə cəlb edilməklə mövcud resurslarımızın bərpası, ölkənin keyfiyyətli su tələbatının su resurslarından səmərəli istifadə etməklə ödənilməsi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi və digər vacib məsələlər burada öz əksini tapıb.

Hazırda dünyada gedən hərbi münaqişələrin, müharibələrin ətraf mühitə verdiyi zərər bütün dünyaya təsir edir. İllərdir, xalqımız Ermənistanın ölkəmizə təcavüzünün nəticəsində ətraf mühitə vurduğu dərin yaraların acısını yaşayır. Prezident cənab İlham Əliyevin ***"Ermənistanın işğal dövründə ekologiyaya vurduğu zərər vəhşilik və talançılıqdır"*** fikirləri bu dediyimizin əyani sübutudur. Bəli, 30 illik işğal dövründə erməni vandalları təbiətimizə qarşı ekoloji terror törətməklə təbii sərvətlərimizi mənimsəyib. Zəngilan (əhəng xammalı), Vejnəli (kvars-qızıl-sulfid), Şərifan (qum), Ağyataq (civə), Söyüdlü (zod-qızıl-sulfid), Qızılbulaq (qızıl-miskolçedan), Tərtərçay (qum-çınqıl), Aşağı və Yuxarı İstisu (termal mineral su), Dəmirli (mis-molibden), Çardaqlı (daş kömür), Suqovuşan-Talış (qarışıq süxur), Boyəhmədli (sement xammal), Dövlətyarlı (mişar daşı), Xocavənd rayonu üzrə Binə, Hadrut, Tuğ, Məlikcanlı, Edilli (qarışıq süxur və qırmadaş) və digər ərazilərimizdə bu kimi təbii sərvətlərimiz qanunsuz istismar olunub. Ermənistanın yürütdüyü ekoloji terror nəticəsində çaylarımız çirkləndirilib. Dağ-mədən sənayesinin tullantı sularının təmizlənmədən birbaşa Oxçuçaya axıdılması su ehtiyatlarından istifadəni yararsız hala salıb. Bu gün də işğaldan azad edilmiş rayonlar talanır, burada olan maddi-mənəvi mədəniyyət nümunələri məhv edilir. İşğaldan azad





edilən ərazilərimizdən çıxarkən ermənilərin evləri, ağacları, meşələri necə vəhşicəsinə yandırdıqlarını, taladıqlarını bütün dünya gördü. Ötən il qanunsuz məskunlaşdıqları Laçın şəhərini, Zabux və Sus kəndlərini boşaldarkən onların çirkin əməllərinin bir daha şahidi olduq. Lakin, təəssüf ki, bu vandallıq hələ də beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməyib.

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən "Böyük Qayıdış" proqramının uğurla icrası məcburi köçkünlərin torpaq həsrətinə son qoyur. Bu gün azad edilmiş torpaqlarımızda ekoloji tarazlığı bərpa etmək, ekoloji mühiti normallaşdırmaq istiqamətində böyük işlər görülür. Tikinti-quruculuq işləri geniş vüsət almaqla yanaşı, dövlət başçısının iştirakı ilə müxtəlif növ ağacların əkilməsi, sulanması, balıqların su hövzələrinə buraxılması, ceyranların qaytarılması bu qayıdışın nümunələridir. Həmçinin Şərqi Zəngəzurda ekosistemin bərpası istiqamətində icra olunan layihələr, ötən il oktyabrın 20-də Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasiminin keçirilməsi, hər iki ölkənin prezidentlərinin bu mərasimdə ağac əkməsi, əraziyə 15 baş ceyran buraxılması ekologiyaya böyük töhfədir.

Belə bir vaxtda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan torpaqlarımızda ermənilərin hələ də ekoloji mühitimizə zərbə vurması qəbuledilməzdir. Ermənistanın nifrət zəminində həyata keçirdiyi bu talançılığa qarşı olaraq artıq bir aydan çoxdur ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası davam edir. Görürük ki, havanın soyuq olması ekoloji fəalları qorxutmur, əksinə, günü-gündən aksiyaya qoşulanların sayı artır. Ölkəmizin hər yerindən böyük dəstək görən dinc aksiyada ekofəallar, vətəndaş cəmiyyəti nümayəndələri, QHT təmsilçiləri, tələbələr böyük iradə və əzm nümayiş etdirirlər. İştirakçılar mədənlərin qanunsuz istismarına, ekoloji terrora qarşı və vətənpərvərlik ruhunda – "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!" kimi müxtəlif dillərdə şüarlar səsləndirir, milli vətənpərvərlik ruhunda mahnılar oxuyurlar. Ermənilərin bu hadisə ilə bağlı dünya ictimaiyyətinə sırıdığı yalanların həddi-hesabı yoxdur. Aksiyaçıların toplaşdığı ərazidən keçən yolda sərbəst hərəkətə heç bir maneə yaradılmayıb və humanitar məqsədlər üçün tam olaraq açıqdır. Aksiya keçirən vətəndaşlarımız irəli sürülən tələblər yerinə yetirilənə qədər mübarizəni davam etdirəcəklər. Təbii sərvətlərimizi talayan ermənilərin bu cinayətkar əməlinə beynəlxalq təşkilatlar isə yenə də göz yumur. Lakin dövlətimizin, vətəndaşlarımızın qətiyyəti ilə istədiyimizə nail olacağımıza inanıram.

Prezident cənab İlham Əliyev Azərbaycan telekanallarına müsahibəsində bu mövzuya toxunaraq gecə-gündüz, şaxtalı-qarlı havada milli haqqımızı tələb edən gənclərin nə qədər yüksək keyfiyyətlərə malik olmasını xüsusi vurğuladı. Dövlət başçısı separatçıların dünyaya tamamilə yalan informasiya ötürməklə məşğul olduqlarını, sülhməramlıların dörd yüzə yaxın yük avtomobilinin həmin ərazidən sərbəst keçdiyini, qanunsuz istismarın dayandırılmasına nail olacağımızı diqqətə çatdırdı və dedi: ***"Ermənilər və onların havadarları hesab edirlər ki, bizə qarşı bundan istifadə etməklə nə isə əldə edəcəklər. Heç nə əldə etməyəcəklər. Mən demişəm, bir daha demək istəyirəm ki, orada Azərbaycan bayrağı altında yaşamaq istəyənlər üçün şərait yaradılacaq. Azərbaycan vətəndaşları kimi, onların hüquqları da, onların təhlükəsizliyi də təmin olunacaq".***

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Təhsil millətin gələcəyidir*

# İnnovativ dərnəklər sağlam gəncliyin formalaşmasında mühüm rol oynayır

Sağlam gəncliyin formalaşmasında və inkişafında muxtar respublikamızın məktəbdənkənar təhsil müəssisələrində yaradılan, müasir dövrün tələblərinə cavab verən innovativ dərnəklərin rolu böyükdür. İnnovasiyaların tətbiqi şagirdlərin biliklərinin artırılmasında, vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyəsində mü-



hüm rol oynayır. Məktəbdənkənar təhsil müəssisələrində həm yeni dövrün tələblərinə cavab verən bacarıqların formalaşdırılması, həm də qədim köklərə malik Azərbaycan xalqının unudulmaqda olan milli-mənəvi dəyərlərimizi özündə yaşadan sənətlərinin qorunub saxlanılmasında böyük rol oynayan innovativ dərnəklər fəaliyyət göstərir. Naxçıvan şəhər, Şərur, Ordubad və Culfa rayonlarında milli-mənəvi dəyərlərimizi əks etdirən, onları qoruyub saxlayan və inkişaf etdirən "Xalçaçılıq", "Heykəltəraşlıq-dulusçuluq", "Metal üzərində bədii döymə", "Ağac üzərində oyma", "Ağac üzərində yandırma", "Şüşə üzərində bədii işləmə sənəti", "Keçə işləmə sənəti", "Duz üzərində sənət", "Bədii dəri işləmə sənəti" dərnəkləri, müasirliyi özündə ehtiva edən "Robotexnika", "STEAM", "Mental arifmetika", "Sürətli oxu", "Ebru sənəti", "Qum sənəti", "Memarlıq-dizayn", həmçinin "Dram", "Bədii gimnastika" və "Bijuteriya" dərnəkləri yaradılmış, zəruri avadanlıqlarla təchiz edilmiş, nümunəvi tədris şəraiti qurulmuşdur. Bunlarla yanaşı, qədim adət-ənənələri özündə cəmləşdirən, dekorativ sənət nümunəsi olan tikmə və toxuma sənətinin sirləri, xalq yaradıcılığına aid folklor nümunələri, "Köçəri", "Tənzərə", "Qazağı", "Qaytağı" kimi yallı və milli rəqslərimiz də dərnəklərdə şagirdlərə öyrədilir. Şagirdlərin marağına uyğun olaraq boks, voleybol, basketbol, tennis kimi dərnəklər də fəaliyyət göstərir. Görülən işlərin davamı olaraq hazırda Babək və Şahbuz rayonlarında məktəbdənkənar təhsil müəssisələri üçün nəzərdə tutulan binanın tikintisi davam etdirilir. Müasir üslubda qurularaq istifadəyə veriləcək bu müəssisələrdə də innovativ dərnəklərin fəaliyyət göstərməsi nəzərdə tutulur.

Uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün yaradılan innovativ dərnəklər milli-mənəvi dəyərlərin qorunmasını, gələcək nəsillərə çatdırılmasını, uşaqların intellektual səviyyələrini inkişaf etdirmələrini təmin etməklə bərabər onlara gələcəkdə peşə seçimində düzgün qərar verməyə də kömək edir. Belə dərnəklərin fəaliyyətinə qısa nəzər salaq:

"Robotexnika" dərnəyinin yaradılmasında əsas məqsəd məktəblilərdə müasir biliklərə, yüksək texnologiyalara marağı artırmaqdır. Bu dərnəkdə robotlar yaradılaraq onların idarə olunması üçün proqramlaşdırma sirləri şagirdlərə öyrədilir. Bu dərnək vasitəsilə şagirdlərimiz dəqiqlik, analitik düşünmə, problem həlletmə, qərarvermə, komanda ilə işləmək kimi bacarıqlar, həmçinin təhsil müəssisələrində əldə etdikləri bilikləri real tətbiqetmə imkanı qazanırlar. Bununla da onlarda mühəndisliyə maraq artır, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmə bacarığı



formalaşaraq proqramlaşma üzrə bilikləri artırılır.

"Memarlıq-dizayn" dərnəyi dərnək üzvlərində mühəndislik bacarıqlarının formalaşmasına, onların düşüncə tərzləri əsasında ən son proqram təminatlarından istifadə etməklə müxtəlif layihələrin hazırlanmasına geniş imkanlar açır.

"Mental arifmetika" dərnəyi dərnək üzvlərində sürətli və dəqiq şəkildə hesablama bacarığının artmasını, onlarda riyazi təfəkkürün inkişafını, yaddaşın və qavramanın, həmçinin özünəinam və yaradıcılıq qabiliyyətinin güclənməsini formalaşdırır.

"Sürətli oxu" dərnəyi şagirdlərdə mütaliə mədəniyyətini formalaşdıraraq daha az zaman ərzində daha çox məlumat öyrənmək, oxunulan məlumatları uzun müddət yadda saxlaya bilmək və yaradıcı düşünmə bacarığını inkişaf edirir.

"Dram" dərnəyinin yaradılması isə müxtəlif əsərlərin mütaliə edilməsi və səhnələşdirilməsi, şagirdlərdə nitq qabiliyyətinin inkişaf etdirilməsi məqsədinə xidmət edir.

"Metal üzərində bədii döymə", "Xalçaçılıq", "Ağac üzərində oyma-yandırma", "Heykəltəraşlıq-dulusçuluq", "Bədii dəri işləmə sənəti", "Şüşə üzərində bədii işləmə sənəti", "Keçə işləmə sənəti" və "Duz üzərində sənət" dərnəklərinin yaradılmasında əsas məqsəd dərnək üzvlərinə xalq yaradıcılığı nümunələrini, dekorativ-tətbiqi sənətin sirlərini öyrətmək və bunları yaşatmaqdan ibarətdir.

"Bədii gimnastika" dərnəyi isə dərnək üzvlərinin bu idman növünün sirlərinə yiyələnməsi və fiziki cəhətdən sağlam formalaşmalarına öz təsirini göstərir.

Dərnəklərin fəaliyyəti zamanı digər diqqətdə saxlanılan məsələlərdən biri də dərnək üzvlərinin əl işlərindən ibarət sərgilərin təşkil olunmasıdır. Mütəmadi olaraq muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvlərinin və şagirdlərin yaradıcılıq nümunələrinin sərgisi təşkil edilir.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili



və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrasına müvafiq olaraq sağlamlıq imkanları məhdud uşaq və gənclərin istedad və bacarıqlarını ictimaiyyətə tanıtmaq, onların yaradıcılıq imkanlarına, dünyagörüşünün formalaşmasına, müxtəlif sahələrdə bilik və bacarıqlarının təkmilləşdirilməsinə, fəaliyyətlərinin stimullaşdırılmasına, cəmiyyətə inteqrasiyasına dəstək göstərmək işində də bu dərnəklərin rolu əvəzedilməzdir. Muxtar respublikada bu kateqoriyadan olan uşaqların əl işlərindən ibarət sərgilər keçirilir, mütəmadi olaraq kurslar və innovativ dərnəklərə ekskursiyalar təşkil olunur.

Bu gün muxtar respublikada məktəbdənkənar təhsil müəssisələrində yaradılan şəraitdən səmərəli istifadə olunaraq innovativ dərnəklərin fəaliyyəti gücləndirilir, dərnəklərin tədrisinə nəzarət artırılır, sağlamlıq imkanları məhdud uşaqların yaradıcı fəaliyyətə cəlb olunması təmin edilir. Bunlar da sağlam gəncliyin formalaşmasına öz müsbət təsirini göstərir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Vətəndaş müraciətləri və onlara baxılması yolları

Azərbaycan Respublikasının 57-ci maddəsində vətəndaşların müraciət etmək hüququ təsbit olunub. Konstitusiyaya əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli Qanunu qəbul edilib. Həmin Qanun Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edir.

Qanunvericiliyə əsasən müraciət edən şəxslər fiziki və ya hüquqi şəxslərdir. Müraciət isə müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı (o cümlədən elektron) formada göndərilən (təqdim edilən) və ya şifahi formada edilən fərdi və ya kollektiv təklif, ərizə, şikayətdir.

Bəzən vətəndaşlar müraciət edərkən müraciətlərinin aidiyyətinə fikir vermirlər. Yalnız yuxarı instansiyalara müraciət etməyə çalışırlar. Müraciətlərdəki məsələlər mahiyyəti üzrə düz ünvanlanmır. Bu isə onların müraciətlərinin həllinin uzanmasına, bir qurumdan digər quruma aidiyyəti üzrə göndərilməsinə, bir qurumun işinin daha da artmasına səbəb olur. Bunu isə vətəndaş onun müraciətinə vaxtında baxılmaması kimi qiymətləndirir.

Qanunvericilik vətəndaşların müraciətlərinə dair tələbləri müəyyən edib. Yazılı müraciətlər şəxsən və ya nümayəndə vasitəsilə təqdim edilir və ya poçt, telefaks, yaxud Qanunun 6.7-ci maddəsində göstərilən qaydada – elektron müraciət şəklində.

Yazılı müraciətdə müraciətə baxan subyektin adı və ya onun vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi, müraciət edən fiziki şəxsin adı, atasının adı, soyadı və ünvanı (yaxud işlədiyi yer), hüquqi şəxsin adı və hüquqi



ünvanı, müraciət nümayəndə vasitəsilə təqdim edildikdə, nümayəndənin adı, soyadı, atasının adı və ünvanı, müraciət hüquqi şəxslərin firma rekvizitləri olan blankda göndərildiyi, yaxud fiziki şəxsin əlaqə məlumatlarından ən azı birinin göstərildiyi hallar istisna olmaqla qanunun tələblərinə cavab vermədikdə anonim sayılır. Kağız üzərində yazılı müraciəti fiziki şəxs və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndəsi imzalamalı və tarix qoymalıdır. Yazılı müraciət nümayəndə vasitəsilə təqdim edildikdə müraciətə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənədin surəti əlavə olunmalı, elektron sənəd formasında göndərilən müraciət elektron imza ilə təsdiq olunmalıdır. Müraciətin mətni oxunaqlı olmalı, müraciətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir. Müraciətin mətnində təhqir və böhtana yol verilməməlidir.

Bəs vətəndaşlar müraciətlərini aidiyyəti üzrə necə ünvanlamalıdır?

Bütün hallarda müraciətə baxan subyekt qanunla nəzərdə tutulmuş səlahiyyətləri çərçivəsində ərizə, şikayət və digər müraciətlərə baxa bilər.

"Prokurorluq haqqında" Qanunun 20-ci maddəsində qeyd olunur ki, prokurorluqda qanunla müəyyən edilmiş qaydada və səlahiyyətləri daxilində ərizə, şikayət və təkliflərə baxılır, vətəndaşların qəbulu həyata keçirilir. Cinayət barədə ərizə, şikayət və məlumatlara təxirə salınmadan baxılır.

Prokurorluq orqanlarında "Vətəndaşların müraciətləri haqqında" Qanunla müəyyən edilmiş tələblərə cavab verməyən anonim müraciətlər qəbul edilmir və onlara baxılmır. Dövlət orqanının (və ya onun vəzifəli şəxsinin) qanunazidd hərəkəti (hərəkətsizliyi) barədə prokurorluq orqanlarına daxil olmuş müraciətlərə Qanuna və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12.6-cı maddəsinə uyğun olaraq baxılır.

Bu cür müraciətlər prokurorluq orqanlarının səlahiyyətlərinə aid olmadıqda onlar beş iş günü müddətində müraciət edən şəxsə qaytarılır. Vətəndaşın müraciəti müraciətə baxan subyekt (və ya onun vəzifəli şəxsi) tərəfindən aidiyyəti üzrə baxılması üçün prokurorluq orqanına göndərildikdə həmin subyektə (və ya onun vəzifəli şəxsinə) onun xahişi ilə ba-



xılmanın nəticəsi barədə məlumat verilir. Əgər vətəndaş prokurorun qərarından narazı qalarsa, o yuxarı prokurora və ya məhkəməyə müraciət edə bilər. Mülki məsələlərə dair prokurorluğa daxil olan müraciət aidiyyəti üzrə məhkəməyə göndərilir.

"Polis haqqında" Qanuna əsasən həmin Qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir. Polisin fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində müvafiq icra hakimiyyəti orqanı, idarədənkənar nəzarəti isə müvafiq icra hakimiyyəti həyata keçirir. Polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində məhkəmələr və prokurorluq orqanları həyata keçirir. Polisin qərarından müvafiq icra hakimiyyətinə, prokurorluq və məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası vətəndaşlarının, onun ərazisində yaşayan xarici vətəndaşların, habelə vətəndaşlığı olmayan şəxslərin qanunlarda nəzərdə tutulmuş hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından məhkəmə icraatının istənilən mərhələsində məhkəmə müdafiəsi hüququ təmin olunur. Heç kəs məhkəmə müdafiəsi hüququndan məhrum edilə bilməz. Rayon (şəhər) məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş mülki, cinayət işlərinə, inzibati xətalara dair və digər işlərə baxır.

İnzibati məhkəmələr birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş inzibati və iqtisadi mübahisələrə dair işlərə baxır.

Kommersiya məhkəmələri birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş kommersiya mübahisələrinə dair işlərə baxır.

Azərbaycan Respublikası Konstitusiyasına müvafiq olaraq apellyasiya məhkəməsi mülki, kommersiya və inzibati məhkəmələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsidir.

Mülki, cinayət işlərinə, inzibati xətalara dair və digər işlərə baxır, baxılması zamanı instansiyalar nəzərə alınır. Yəni birinci instansiya məhkəməsinin qərarından yalnız yuxarı instansiya məhkəmələrinə müraciət oluna bilər. Bəzən vətəndaşlar tərəfindən məhkəmənin qərarından polis və prokurorluq orqanlarına şikayət edilir. Bütün hallarda prokurorun qərarında yuxarı prokurorluğa və məhkəməyə, məhkəmənin qərarından isə yuxarı instansiya məhkəməsinə şikayət verilə bilər.

"Mediasiya haqqında" Qanuna əsasən mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), ailə münasibətlərindən irəli gələn mübahisələr, əmək münasibətlərindən irəli gələn mübahisələr, inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrlə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur. Yəni vətəndaş bu məsələlər barədə əvvəlcə mediatora müraciət etməlidir.

Həmçinin ölkəmizdə İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatı yaradılmışdır. Onun vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və insan hüquqları pozuntularının qarşısını almaqdan ibarətdir.

Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir.

Sonda vətəndaşlara müraciət edərək qeyd etmək istəyirik ki, doğru ünvana etdiyiniz müraciət vaxtında öz həllini tapar.

**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri***

*Gəlin açıq danışaq*

# Cəbiş müəllimin paxırlı su gileyi

***(Felyeton)***

Son zamanlar adamlar haqlı-haqsız yaman dərdli olublar. Kimi itirdiyi iş yerinin, kimi əmlakının geri qaytarılmasını istəyir, kimi də az qala evindəki qırıq pəncərə şüşəsini dəyişmək üçün şəhərə şikayətə gəlir. Hamının tanıdığı bizim Cəbiş müəllim dürüst və təmkinli adam olsa da, hər kəsin hər gileyini qəzetə mövzu etmək fikrimiz yoxdur. Amma kiçik bir yol-nəqliyyat hadisəsinin "xəbər" olduğu bu günlərdə bizim də bu yaxınlarda işıqlandırdığımız Naxçıvanın ictimai nəqliyyatındakı qiymətlərə olan münasibətimiz kimi yüz minlərlə sakini maraqlandıran digər belə problemlərə biganə qalmağımız artıq, sadəcə, mümkün deyil. Bəli, söhbət təkcə başında altı cüt, bir tək tükü olan Cəbiş müəllimin problemi deyil, şəhərimizdə hər kəsin hər gün istifadə etdiyi axar suyun keyfiyyətindəndir.

"Su" mövzusu Naxçıvan şəhəri üçün həmişə aktual olub. Yeraltı suların qıt və kirəcli, yağmurun az olması və sovetlərdən qalma köhnə infrastruktur çox zaman şəhərimizdə və onun ətrafında su təminatını çətinləşdirib, insanlar təmiz suyu deyil, sadəcə, onun özünü tapanda seviniblər. Ta ki Azərbaycan Respublikası ilə Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə əsasən 2010-cu ilin mayında inşasına başlanılmış və 2014-cü il aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilmiş Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksindən evlərimizə ipək kimi yumşaq, göz yaşı kimi dumduru su gələnə qədər şəhərimizdə vəziyyət belə olub. Bundan sonra Hollandiya istehsalı olan nanofiltrasiya sistemli membranlar vasitəsilə təmizlənmiş yüksəkkeyfiyyətli sudan doyunca və rahatlıqla istifadə edən hər bir sakin kimi, biz də razılıqla hər imkanda dövlətimizə minnətdarlıq edirdik. Hətta o zamanlar köhnə



xətlərdən gələn texniki suyun pulsuz olaraq suvarma və digər məqsədlərlə istifadəsi üçün həyətlərdə su kranları qoyulduğunu da xatırlayırıq. Bunu yada salan adamlar da təzə suyun əsl keyfiyyətini o dövrdən görüb indi onun yoxluğundan haqlı olaraq gileylənirlər.

Evlərimizə verilən suyun hansı keyfiyyətdə olması, əslində, camaatı çoxdan narahat edirdi. Tez-tez sakinlər kirəcli suya görə evlərində vaxtından qabaq sıradan çıxan kifayət qədər bahalı su sistemlərinə, qızdırıcı və təmizləyici qurğulara və ya sadəcə, ləkə tutan qabqaşığa görə su təsərrüfatı işçilərinə irad tutduqda onlar da vəhşi heyvanların viran qoyduqları bağ-bağata, əkin-biçinə görə kəndlinin haqlı suallarına cavab verə bilməyən rayon icra hakimiyyəti və ya ekologiya rəsmiləri kimi çiyinlərini çəkib "bu bizlik deyil", – deyərək birtəhər mövzudan yayınırdılar. Şübhəsiz, hamı kimi onların da haqqının tapdalandığını, yəni bu kirəcli şor sudan elə onların özlərinin də içdiyini düşündükdə bunun bir qaçılmaz sonunun olacağını hər kəs düşünürdü. Və oldu da! Artıq hər gün dükanlarda satılan təmiz sudan almağa imkanı çatmayıb, fürsət düşəndə iki gündən bir şəhərətrafı artezianlardan, yaxud Şahbuzun, Ordubadın dağ kəndlərindən içməli su daşıyanların da, Cəbiş müəllim kimi yuduqda saçları bir-birinə yapışan daz kişilərin də, iki aydan bir korlanmış su sistemlərini sökür Çin, İran istehsalı olan yeniləri ilə əvəz edənlərin haqqının ödənilməsi zamanı gəlmişdir. Qeyd edək ki, burada kirəcli su ucbatından gecəgündüz baş verən qəzalar və vaxtından qabaq sıradan çıxmış avadanlıqların, sayğacların, siyirtmələrin cari təmiri zamanı min bir əziyyət və izafi məsrəf çəkib suyu davamlı verməyə



çalışan su idarəsi işçilərinin və mühəndislərin də əməyini unutmamaq lazımdır.

Bəs bu haqqı kim ödəyəcək, hələ bilinmir, amma belə görünür ki, vaxtında düzü düz, əyrini əyri yazmayanda, deməyəndə axırda bax belə milyonluq problemlər yaranır. Mövzu ilə bağlı Naxçıvan Şəhər Su-Kanalizasiya İdarəsinə müraciət etdikdə bildirdilər ki, hazırda şəhərə verilən su sağlamlıq baxımından mikrobioloji və sanitar tələblərə cavab versə də, kirəc probleminin aradan qaldırılması məqsədilə neçə illər əvvəl hər birinin qiyməti 560 dollar, yəni, təxminən, 950 manat olan nanosüzgəclərin vaxtında dəyişdirilməsi üçün nəzərdə tutulan maliyyə vəsaitinin ayrılması ilə bağlı dəfələrlə müraciət edilib. Ancaq idarənin balansında pul olsa da, nə fayda, çox təəssüf ki, buna icazə verilməyib. Əvəzində isə təlimatlara uyğun olaraq vaxtaşırı dəyişdirilməsi nəzərdə tutulan və hər birində, təxminən, 300 min manat dəyəri olan belə təmizləyici membranların quraşdırıldığı 7 sutəmizləyici qurğudan indiyədək yalnız sadə süzgəclərdən keçirilməklə Naxçıvan camaatına kirəcli su verilir.

Bu suyun da paxırı gec-tez açılacaqdı.

✍ **Əli CABBAROV**


## Elan

Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi dəftərxana ləvazimatlarının alınması üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

***Tender və Kotirovka*** Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı dəftərxana ləvazimatları haqqında məlumat*

Qeyd olunmuş sənədlər toplusunu 17 yanvar 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etmək lazımdır.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Tender və Kotirovka Komissiyası***
***Əlaqə telefonu: (036) 550-33-33***

## İtmişdir

Culfa rayonunun Saltaq kəndində yerləşən Ələkbərov Əkbər Məmməd oğluna məxsus torpaq sahəsinin 30.01.2011-ci il tarixli MH-0019290 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Zərifə Əliyeva küçəsi 17 ünvanda Niftəliyev Elmixan Məmməd oğlu və Niftəliyev Akif Məmməd oğlunun adına olan 974 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Məcid Əkbərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 30